**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İXRAC YÖNÜMLÜ İSTEHSAL SAHƏLƏRİNİN İNKİŞAFININ İQTİSADİ TƏHLİLİ MƏSƏLƏLƏRİ

İxtisas: **5312.01 - "Sahə iqtisadiyyatı"**
Elm sahəsi: **İqtisad elmləri**
İddiaçı: **Rəhimova Tubu Məmmədrza qızı**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə – 2021**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazırliyi Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

**Rəsmi opponentlər**: iqtisad elmləri doktoru, dosent
**Aygün Eldar qızı Quliyeva**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Aygün Hüseynəli qızı Əliyeva**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Sevda Tofiq qızı Hacıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, i.e.d., professor
______________ **Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent
______________ **Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
______________ **İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Məlumdur ki, bəşəriyyət qarşısında duran mühüm məqsəd əhalinin ərzaq təhlükəsizliyini, həmçinin aqrar sahə məhsullarına artan tələbatı ödəməklə yanaşı ixrac yönümlü iqtisadi modeli əsas götürməklə yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyata transformasiyadır. Bu çərçivədə əsas vəzifələrdən biri aqrar sektorun yüksək inkişaf tempini qoruyub saxlamaqla onun ixrac imkanlarını genişləndirmək, ölkənin davamlı və dayanıqlı iqtisadi inkişafa nail olmaqla makroiqtisadi sabitliyini təmin etmək imkanının zəruriliyidir.

İşğaldan azad olunan ərazilərin təbii resursları, əsasən də aqrar sahənin potensialı ölkəmizin iqtisadi baxımından inkişafa nail olmasında mühüm əhəmiyyətə malikdir. Müstəqillik dövründə ölkəmizin aqrar sahədə əldə edilən təcrübələrinin işğaldan azad edilmiş rayonlara transfer edilməsi, orada sahibkarlıq fəaliyyətlərinin təşviq edilməsi üçün xüsusi dəstəkləmə proqramlarının həyata keçirilməsi, heyvandarlıq və bitkiçilik sahəsində zəruri infrasturktur qurulması kimi məsələlər prioritet əhəmiyyətə malikdir. Müvafiq bölgələrdə aqrar sahənin inkişaf potensialının dəyərləndirlməsi məqsədilə işğal baş verməmişdən əvvəl olan vəziyyət təhlil edilməklə işğaldan azad olunan ərazilərin iqlim şərtləri, relyefi, eləcə də müxtəlif təbii imkanları diqqət mərkəzində saxlanılmaqla Dağlıq Qarabağ, həmçinin ətraf yaşayış məntəqələrində aqrar sferanın prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə ehtiyac vardır.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxış imkanlarının aşkar edilməsi, həmin imkanların gücləndirilməsi, aqrar sektorun ixrac yönümünün dəstəklənməsi aqrar siyasətin prioritet istiqamətləri olaraq bəyan edilmişdir. Bu prioritetlərin reallaşdırılması müvafiq elmi təminatın formalaşdırılmasını və inkişaf etdirilməsini tələb edir. Odur ki, Milli Qarabağ markalı kənd təsərrüfatı məhsullarının brendləşdirilməsi və xarici bazarlara çıxış imkanlarının artırılması üzrə kompleks araşdırmaların əhatə dairəsinin genişləndirilməsi, xarici bazarda rəqabət üstünlüklərinin gercəkləşdirilməsi və bu kimi bir sıra digər məsələlər öz həllini gözləyir.

Qeyd edilən məqsədlərə nail olmaq üçün ilk öncə ölkə iqtisadiyyatının müsbət tendensiyalı xüsusiyyətləri dövründə aqrar sferada intensiv inkişaf meyllərinin müvafiq çatışmazlıqları ilə əlaqədar kompleks tədqiqatlara, o cümlədən aqrar sahədə ixrac yönümlü istehsal sahələrinin nəzəri-metodoloji əsaslarının, tənzimləmə mexanizmlərinin, marketinq prinsiplərinin, rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, bu sahədə əlverişli şəraitin daha da genişləndirilməsi, ixrac potensiallı istehsal sferalarının iqtisadi baxımdan inkişafının təmin edilməsi və digər amillərin təhlilinə ehtiyac vardır. Bütün bunları nəzərə alaraq qeyd edilən istiqamətlərdə tədqiqatların daha geniş və kompleks surətdə aparılması zərurətinin yaranması seçilmiş dissertasiya işinin mövzusunun aktuallığını ön plana çəkir.

Kənd təsərrüfatına aid olan ixrac istiqamətli malların istehsalının artırılması ilə əlaqədar çatışmazlıqlar və onların aradan qaldırılması imkanları, məhsul istehsalının, eləcə də həmin məhsulların ixrac imkanlarının reallaşdırılması, idarə olunması və tənzimlənməsi məsələləri Azərbaycanın iqtisadçı alimləri Z.Ə.Səmədzadə, A.F.Musayev, S.V.Salahov, H.A.Xəlilov, R.Ə.Balayev, E.R.İbrahimov, B.X. Ataşov, R.K.İsgəndərov, A.H.Vəliyev, İ.H.İbrahimov, İ.V.Əhmədov, N.Ə.Cavadov, E.A.Quliyev, V.H.Abbasov, Ə.X.Nuriyev, İ.Ş.Qarayev, İ.H.Alıyev, A.Ş.Şəkərəliyev, M.A.Əhmədov, A.A.Nadirov, H.B.Allahverdiyev, F.F.Rzayev, A.F.Abbasov və başqaları tərəfindən dəyərli tədqiqatlar aparılmışdır. Xarici ölkə alimlərindən isə L.İ.Abalkin, İ.İ.Lukinov, İ.V.Baranov, D.A.Çernikova, Y.Y.Donets, L.D.Revutskiy, E.V.Bartova, M.K.Starovoytov, A.S.Molçan, K.E. Andreyev, İ.N.Vostyutçenko, V.S.Artyomova, P.A. Fomin, Q.S. Merzlikina, D.K.Şevçenko və başqaları tərəfindən ətraflı tədqiq edilərək bu elmin inkişafında əməyi danılmazdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasının aqrar sahəsi, o cümlədən kənd təsərrüfatı məhsulları kompleksinə daxil olan ixrac yönümlü istehsal sahələri və qurumlar, predmetini isə kənd təsərrüfatı müəssisələrində ixrac yönümlü istehsal sahələrinin inkişafına təsir edən amillər və onların iqtisadi təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi iqtisadiyyatın qloballaşdığı müasir şəraitdə ixrac yönümlü aqrar istehsal sahələrinin inkişafının təmin edilməsi istiqamətlərinin araşdırılması və onların iqtisadi təhlilinin aparılmasıdır.

Qarşıya qoyulmuş məqsədə uyğun olaraq dissertasiya işində aşağıda qeyd edilən müvafiq vəzifələrin reallaşdırılması nəzərdə tutulmuşdur:

- ixrac yönümlü istehsal sahələrinin inkişafının iqtisadi səmərəliliyinin və onun makroiqtisadi təsirinin nəzəri cəhətdən müəyyən edilməsi;
- aqrar sahədə istehsal və iqtisadi potensialların nəzəri və metodoloji aspektdən səciyyələndirilməsi;
- ixrac məqsədli məhsulların istehsalı ilə məşğul olan sahələrin inkişaf dinamikasının iqtisadi təhlili əsasında mövcud imkanların qiymətləndirilməsi;
- ixracla məşğul olan müəssisələrdə istehsalın mövcud vəziyyətinin qiymətləndirilməsi və təhlil edilməsi;
- ixrac yönümlü məhsulların bazara çıxışında marketinq metodunun rolunun müəyyən edilməsi;
- ixrac yönümlü istehsal sahələrinin modernləşdirilməsi və innovativ inkişaf istiqamətlərinin müəyyən edilməsi;
- işğaldan azad olunmuş ərazilərdə aqrar sahədə ixrac yönümlü məhsul istehsalının genişləndirilməsi və Milli Qarabağ markalı məhsulların rəqabətqabiliyyətliyinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsi;
- ixrac yönümlü istehsal sahələrinin bazar infrastrukturunun formalaşdırılması və marketinq sisteminin təkmilləşdirilməsi istiqamətlərinin araşdırılması;
- ixrac yönümlü istehsal sahələrinin inkişafının iqtisadi təhlili əsasında təkliflərin hazırlanması.

**Tədqiqatın metodları.** Tədqiqatın metodu kimi, qruplaşdırma, müşahidə, müqayisə, məntiqi ümumiləşdirmə, məqsədli-sistemli yanaşma, inkişaf dinamikası, proqnozlaşdırma, iqtisadi - statistik, o cümlədən sistemli iqtisadi təhlil və digər üsullardan istifadə edilmişdir. Tədqiqatın nəzəri və metodoloji əsasını aqrar iqtisadçı klassiklərin elmi müddəaları, xarici və ölkə iqtisadçı alimlərinin kənd təsər-

rüfatı müəssisələrinin ixrac yönümlülüyünün artırılmasına həsr edilmiş elmi tədqiqat işləri və s. təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

- ixrac yönümlü istehsal sahələrinin inkişafının iqtisadi səmərəliliyinin nəzəri əsaslarının, həmçinin ixrac potensialının stimullaşdırılmasının iqtisadi inkişafa təsirinin metodoloji aspektlərinin müəyyən edilməsi tələb olunur;
- aqrar sahədə istehsal və iqtisadi potensialların nəzəri və metodoloji aspektdən qiymətləndirilməsinə ehtiyac duyulur;
- ixrac yönümlü istehsal sahələrinin inkişaf dinamikasına əsasən onların bazara çıxışının idarə edilməsinin marketinq metoduna zərurət yaranmışdır;
- aqrar sahədə ixrac yönümlü məhsul istehsalının səmərəlilik göstəricilərinin müəyyən edilməsi kifayət qədər fayda verə bilər;
- ixrac yönümlü istehsal sahələrinin modernləşdirilməsi və innovativ inkişaf istiqamətində tövsiyə və təkliflər hazırlanmalıdır;
- Qarabağın işğaldan azad olunması ilə formalaşan perspektivlər nəzərə alınmaqla, kənd təsərüfatı məhsullarının ixrac imkanları üzrə adekvat fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə ehtiyac yaranmışdır.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- ixrac yönümlü istehsal sahələrinin səmərəlilik göstəriciləri müəyyənləşdirilərək istehsal və iqtisadi potensialın formalaşdırılması istiqamətində təkliflər hazırlanmışdır;
- ixrac potensialının reallaşdırılmasının iqtisadi inkişafa təsirinin nəzəri və metodoloji aspektləri təkmilləşdirilərək onları şərtləndirən amillər qruplaşdırılmış, ixrac potensialına təsir göstərən müsbət və mənfi amillərin bölgüsü aparılmışdır;
- aqrar sahədə ixrac yönümlü istehsal sahələrinin inkişaf dinamikasının iqtisadi təhlili əsasında potensial imkanlar qiymətləndirilərək kənd təsərrüfatının müxtəlif kateqoriyalarının müqayisəli təhlili verilmişdir;
- istehsalın səmərəlilik modeli qurulmuş və bu model əsasında səmərəliliyə təsir edən amillər, istehsal-texnoloji, istehsal-iqtisadi və sosial sahələri özündə birləşdirən səmərəlilik kimi iqtisadi kateqo-

riyalar qarşılıqlı təhlil edilmişdir;

- işğaldan azad olunmuş ərazilərdə rəqabətqabiliyyətli məhsul istehsalının reallaşdırılması və ixrac yönümlü istehsal sahələrinin bazar infrastrukturunun formalaşdırılması istiqamətində təkliflər hazırlanmışdır;

- ixrac yönümlü məhsulların bazara çıxışında marketinq metodunun rolu müəyyən edilərək marketinq sisteminin təkmilləşdirilməsi istiqamətləri göstərilmişdir;

- ixrac yönümlü istehsal sahələrinin modernləşdirilməsi və innovativ inkişaf istiqamətində təkliflər hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Əldə edilən elmi nəticələr ixrac yönümlü istehsal sahələrində kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının təşkili istiqamətlərinin təkmilləşdirilməsinə kömək edəcəkdir. Kənd təsərrüfatının inkişafına dair elmi yanaşmalar, eləcə də irəli sürülən təkliflər bu sahə üzrə dövlət siyasətinin və yerli lahiyələrin yerinə yetirilməsində də istifadə edilə bilər. Tədqiqat işinin əsas müddəaları, əldə edilmiş nəticələr, o cümlədən elmi yenilikləri müxtəlif iqtisadi fənlərin tədrisi prosesində də faydalı ola bilər.

İşin təcrübəvi əhəmiyyəti ondan ibarətdir ki, onun əsas müddəalarından, elmi əsaslandırılmış nəticə və təkliflərdən istifadə ixrac yönümlü istehsal sahələrinin inkişafına və modernləşdirilməsinə, bununla da onların rəqabətqabiliyyətliliyinin və iqtisadi səmərəliliyinin artırılmasına imkan yaradar. Dissertasiya işində irəli sürülən nəzəri-metodoloji müddəalar, əsaslandırılan təklif və tövsiyələr bazar münasibətlərinin formalaşdığı bir dövrdə kənd təsərrüfatında ixrac yönümlü istehsal sahələrinin iqtisadi inkişafında və məhsul istehsalının reallaşdırılmasında, eyni zamanda, bu sahədə iqtisadi qərarların qəbulunda, habelə elmi tədqiqat işlərində, tədris prosesində və s. istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin ayrı-ayrı müddəaları, aparılan tədqiqatlar zamanı əldə edilən nəticələr, irəli sürülən təklif və tövsiyələr iki respublika və bir beynəlxalq elmi konfransda təqdim edilmiş, o cümlədən biri xaricdə olmaqla 6 elmi məqalə müxtəlif elmi jurnal və əsərlər toplusunda nəşr olunmuşdur.

Dissertasiya işinin əsas müddəaları və nəticələri Tovuz rayonu Qovlar qəsəbəsi “Rüfət” Kəndli Fermer təsərrüfatı (21 sentyabr 2018-ci il tarixli, 07saylı arayış) və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzi (25.11.2020) tərəfindən istifadə üçün qəbul olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən, üç fəsildən, nəticələrdən, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir. Burada 2 qrafik, 16 cədvəl, 8 şəkil, 5 sxem, 2 dioqram və 3 əlavə vardır. Dissertasiyanın stukturunda giriş 7 səhifə olub 13384 işarədən, birinci fəsil 28 səhifə olub 46967 işarədən, ikinci fəsil 52 səhifə olub 86972 işarədən, üçüncü fəsil 34 səhifə olub 61701 işarədən, nəticələr 4 səhifə olub 6792 işarədən və istifadə edilmiş 118 sayda ədəbiyyat siyahısı 10 səhifə olub 16262 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 232078 işarə olmaqla 142 səhifə kompüter yazısından ibarətdir. Dissertasiyanın ümumi mətn hissəsi (cədvəllər, qrafiklər, şəkillər, sxem və ədəbiyyat siyahısı istisna edilməklə) isə 111 səhifə kompüter yazısı və ya 207988 işarə təşkil edir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Müvafiq tələblər səviyyəsində işlənib hazırlanmış dissertasiya işinin **Giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi obyektiv qiymətləndirilmiş, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, nəzəri-metodoloji əsasları, informasiya bazası, elmi yeniliyi və təcrübi əhəmiyyəti lakonik şəkildə ifadə edilmişdir.

Dissertasiyanın birinci fəsli **“İxrac yönümlü ıstehsal sahələrının inkişafının nəzəri-metodoloji əsasları”** adlanır. Burada “İxrac yönümlü istehsal sahələrinin inkişafının iqtisadi səmərəliliyinin nəzəri əsasları”, “Aqrar sahədə istehsal və iqtisadi potensialları səciyyələndirən göstəricilər sisteminin qiymətləndirilməsi”, “Aqrar sahədə

ixrac potensialının iqtisadi inkişafa təsirinin nəzəri və metodoloji aspektləri" bölmələri geniş şərh olunur.

Bəşəriyyət qarşısında duran mühüm məqsəd əhalinin ərzağa artan tələbatını təmin etmək olduğundan ölkə əhalisini ərzaqla yüz faiz təmin etməklə yanaşı eyni zamanda, böyük ixrac potensialının da yaradılmasını əminliklə söyləmək olar. Bu istiqamətdə dövlətin aqrar sahəyə münasibətdə tutduğu mövqenin səmərəliliyinin qiymətləndirilməsi, aqrar sahibkarlığın dəstəklənməsinin optimal səviyyəsinin təyin edilməsi parametrlərinin müəyyənləşdirilməsi, həmçinin, ixrac məqsədli istehsal subyektlərinin inkişafının iqtisadi səmərəliliyinin araşdırılması vacib məsələlər hesab olunur. Aqrar sferanın ixrac istiqamətli istehsal sahələrinin xüsusi spesifikliyi ilə fərqləndiyini nəzərə alaraq onun sistemli və tam şəkildə araşdırılması vacib şərtdir. Bu məqsədlə həmin sahədə istehsal və satışın məzmunu, xüsusiyyətləri, əlaqəli amillər və tənzimləmə mexanizmləri, marketinq prinsipləri və digər amillərin təhlilinə ehtiyac duyulduğundan aqroistehsal sahələrinin tam bölgüsü, onların müntəzəm inkişaf strategiyasının hazırlanması və s. müəyyənləşdirilməlidir.

Tədqiqatın obyekti kimi nəzərdən keçirilən ixrac potensiallı məhsul buraxılışı sferaları təhlil edildikdə aqrar sahə üzrə istehsal-satış ardıcıllığının nəzəri və metodoloji təməllər üzərində qurulması və tədqiq olunacaq obyektlər çoxluğu onların spesifikliyi ilə əlaqələndirilərək araşdırılmalıdır. Belə yanaşma araşdırma üzrə vəzifələr məcmusunun sistemli hazırlanmasını təşkil edir. İlk növbədə ixrac yönümlü məhsul istehsalı sistemi tədqiq edilməli və bu istiqamətdə yeni problemlərin yaranması halları, həll edilən problemlərin vəziyyətindəki dəyişikliklər və ziddiyyətlər təhlil edilməlidir. Ümumilikdə tədqiqat işinin elmi, nəzəri-metodoloji əsasları müəyyənləşdirilərkən iqtisadiyyatın əsas aparıcı sahələrindən biri olan aqrar sahənin digər sahələrdən fərqli xüsusiyyətləri mütləq nəzərə alınmalıdır.

Tədqiqat işində istehsal potensialının həm nəzəri-metodoloji tətbiqi problemlərinin, həm də onun texniki-texnoloji və iqtisadi-sosial problemlərinin qarşılıqlı əlaqəli şəkildə həll edilməsi istiqamətləri, istehsal potensialına daxil olan alt sistemlərdən maddi aktivlər, o cümlədən, maddi-texniki və texnoloji resurslar, əmək resursları, informasiya resursları, maliyyə resursları, həmçinin qeyri-maddi

aktivlər və onların tərkib hissələri də müəyyənləşdirilərək işdə əks olunmuşdur. İstehsal potensialına daxil olan alt sistemlər bir-birindən təçrid edilmiş şəkildə fəaliyyət göstərə bilməzlər, çünki onlar bir müəssisənin tərkib hissələri kimi bir-birilə qarşılıqlı əlaqədə olmaqla iqtisadi fəaliyyətin nəticəsi hesab edilir.

Məlumdur ki, ixrac potensialı ölkənin iqtisadi potensialının bir hissəsi olmaqla, istehsal vasitələrindən tam şəkildə istifadə etməklə xarici bazar istehlakçılarının tələblərinə müvafiq miqdarda və keyfiyyətdə müxtəlif növ maddi nemət istehsalı və ixrac etmək qabiliyyətidir. Ümumiyyətlə, aqrar sənayenin ixrac potensialının artırılması konsepsiyaları dünya ölkələrində strateji mexanizmlərlə müşayiət olunmuşdur. Odur ki, aqrar müəssisələrin ixrac potensialının iqtisadi inkişafa təsirinin nəzəri və metodoloji aspektlərinin araşdırılması vacib şərtdir. Bu baxımdan beynəlxalq ticarət prosesinda ixrac potensialının məhsulun mənşəyi və təyinatından asılı təsnifatı və aqrar sənaye müəssisələrinin ixrac potensialını nəzəri baxımdan şərtləndirən amillər qruplaşdırılaraq tədqiqat işində öz əksini tapmışdır. Həmçinin, qiymətləndirməni əsas tutaraq ölkəmizdə aqrar sənaye məhsullarının ixrac potensialına təsir göstərən müsbət və mənfi amillərin bölgüsü aparılmışdır.

İxrac potensialının artırılması dövlət tərəfindən müxtəlif tənzimləmə metodları ilə həvəsləndirilir və stimullaşdırılır. Belə ki, aqrar ixrac potensialının artırılmasında bu sahənin maliyyələşdirilməsi mühüm rol oynayır. Azərbaycanda kənd təsərrüfatının güzəştli şərtlərlə kreditləşdirilməsində ixtisaslaşmış iki dövlət qurumu – Sahibkarlığın İnkişaf Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi aktiv iştirak edir. Aqrar sahənin davamlı inkişafının və ixrac potensialının dövlət tənzimlənməsinin və dəstəyinin təsirinin digər prioritet istiqamətləri onun əmtəə istehsalçılarının bazar münasibətlərinə adaptasiya edilməsi üçün şəraitin yaradılması və aqrar sahənin strukturunun təbii iqlimi potensialına və bazar münasibətlərinə uyğunlaşmağa meylləşməsi, həmçinin dayanıqlı maddi-texniki təminatı üçün şəraitin yaradılmasıdır. Ölkə prezidentinin 6 dekabr 2016-cı ildə verdiyi fərmanla təsdiq etdiyi “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair

Strateji Yol Xəritəsi"nin tətbiq edilməsi də ixrac qabiliyyətinin reallaşdırılmasında əsas hərəkətverici qüvvə kimi dəyərləndirilə bilər.

Beləliklə, iqtisadiyyatın qloballaşdığı müasir şəraitdə ixrac yönümlü istehsal sahələrinin inkişaf istiqamətlərinin fəaliyyət proqramını əsas tutaraq bu sahələrin inkişafının iqtisadi səmərəliliyinin nəzəri əsasları, istehsal, iqtisadi və ixrac potensiallarını səciyyələndirən göstəricilər sisteminin iqtisadi inkişafa təsirinin nəzəri və metodoloji aspektlərinin qiymətləndirilməsi məqsədəuyğun hesab edilir.

İkinci fəsildə **"İxrac yönümlü istehsal sahələrinin inkişaf dinamikasının müqayisəli təhlili və qiymətləndirilməsi"** araşdırılır. Dissertasiya işində Azərbaycan Respublikasında ixrac yönümlü istehsal sahələrinin inkişaf dinamikasının iqtisadi təhlili, aqrar sahədə ixrac yönümlü məhsul istehsalının mövcud vəziyyətinin qiymətləndirilməsi, səmərəlilik göstəricilərinin qiymətləndirilməsi və ixrac yönümlü istehsal sahələrinin bazara çıxışının idarə edilməsinin marketinq metodunun mövcud vəziyyəti və inkişaf meylləri təhlil edilir.

İlk növbədə kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələrinin qiymətləndirilməsi vacib şərtdir (dioqram 1). Tərtib edilən dioqramdan göründüyü kimi 2019-cu ildə fəaliyyət göstərən gəlirlə işləyən müəssisələrin sayı azalmağa başlamışdır, o cümlədən 2016-cı ilə nisbətən 7,6 %, 2018-ci ilə nisbətən isə 10,4 % azalaraq 1471olmuş, mənfəətlə işləyən aqrar təsərrüfatların sayı da müvafiq dövr ərzində 7,5 % və 11,8 % azalaraq 1376 olmuşdur. Zərərlə işləyən aqrar təsərrüfatların sayı 2019- cu ildə 2016-cı ilə nisbətən müqayisədə 8,7 % azalmış, 2018-ci ilə nisbətən isə 17,3 % artmışdır. Deməli, müvafiq dövr ərzində ziyanla işləyən təsərrüfatların azalması, gəlirlə işləyənlərin təsərrüfatların isə sayının artması kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinə birbaşa müsbət təsir göstərmişdir.

Aparılan təhlililərdən məlum olur ki, 2019-cu ildə 558 fərdi sahibkar təsərrüfatı fəaliyyətini dayandıraraq onların sayı 2016-cı ilə nisbətən 38% azalmışdır. Getdikcə fərdi sahibkar təsərrüfatlarının fəaliyyətinin dayanması onlara ayrılmış torpaq sahələrinin 54,7% və hər bir fərdi təsərrüfata düşən torpaq sahəsinin orta ölçüsünün də 27,1% azalmasına səbəb olmuşdur.

**2010-2019-cu illər üzrə Azərbaycan Respublikasında aqrar təsərrüfatların dinamikası**




Dioqram 1.*ADSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir[1].

Tədqiqat işində torpaq resurslarından səmərəli istifadə olunması, aqrar-sənaye müəssisələrində istehsalın səmərəlilik modeli qurulmuş və bu model əsasında səmərəliliyə təsir edən amillər qarşılıqlı təhlil edilmişdir ( sxem 1).

Kənd təsərrüfatında istehsal müəssisələrinin fəaliyyətindən, həmçinin kənd təsərrüfatı məhsullarının satışından əldə edilən rentabellik göstəricisi də iqtisadi səmərəliliyi əks etdirən əsas göstərici olduğundan onların da təhlili təxirə salınmazdır (qrafik 1)

2019-cu ildə kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin bütün sahələrində rentabellik səviyyəsinin aşağı düşməsi gözəçarpacaq dərəcədə özünü büruzə vermişdir. Belə ki, 2019-cu ildə kənd təsərrüfatı müəssisələrinin fəaliyyətində ümumi rentabelliyin səviyyəsi 2016-cı ilə nisbətən 3,1%, 2018-ci ilə nisbətən 2,9% aşağı düşərək 17,2% olmuşdur. Müvafiq dövr ərzində kənd təsərrüfatı məhsullarının satışında rentabellik səviyyəsi 4,1% və 0,9% aşağı düşərək 15, 3%, bitkiçilikdə 7,8% və 4,7% aşağı düşərək 35,7%, heyvandarlıqda isə 8,4% və 2,5% aşağı düşərək 3,4%-ə enmişdir. Bu isə 2019-cu il ərzində bitkiçiliyin və heyvandarlığın inkişafında problemlərin olduğunu göstərir.

[1] "Azərbaycanın kənd təsərrüfatı". Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: - 2020.- 653s., səh.108.




Sxem1. Aqrar-sənaye müəssisələrində istehsalın səmərəlilik modeli.*Müəllif tərəfindən tərtib edilmişdir[2].

Azərbaycanda qeyri-neft sektorunn üstün inkişafı strategiyasının reallaşdırılmasının ilkin nəticələri, artıq həmin sektorun məhsullarının təkcə daxili bazarda deyil, habelə xarici bazarda satışı imkanlarının nəzərdən keçirilməsini tələb edir. Son illərdə müxtəlif qeyri-neft sektorunun məhsulları, o cümlədən kənd təsərrüfatında və aqrar sektorda istehsal olunan bir qrup məhsulların brendləşdirilməsi və xarici bazarlara çıxarılması potensialının formalaşdırılması istiqamətində məqsədli tədbirlər görülməkdədir. Artıq bir qrup "Made in Azerbaijan" brendi adı altında milli məhsullarımız xarici bazarlarda etimad qazanmaqdadır.

[2] Qasımov Ə. Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi. Dərslik. / Qasımov Ə. Bakı: - Nurlan – 2015 -354 s. səh.191-193.

**Kənd təsərrüfatı müəssisələrinin fəaliyyətində rentabelliyin səviyyəsi,%**




Qrafik 1. ADSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir[3].

Bazar imkanlarının təhlili aparılarkən 2016-cı ildə kənd təsərrüfatı məhsullarının satışından ölkəmizə ən çox valyuta gətirən məhsullar müəyyənləşdirilmişdir(cədvəl 1). Belə ki, birinci yerdə fındıqdır. Fındığın satışından ölkəmizə 2020-ci ildə isə 116,3 milyon dollar vəsait daxil olmuşdur ki, bu da ümumi ixraca nisbətən 0,85 % , 2020-ci ilin qeyri-neft sektoru üzrə ixracına nisbətən 4,95 % təşkil etmişdir. Demək olar ki, fındıq yüksək rentabelliyi ilə seçilən, daxili və xarici bazarlarda daimi alıcısı olan, həmçinin istehsalçılar üçün daha əlverişli hesab edilən məhsuldur. İstehsal edilən fındıq dünya bazarında keyfiyyəti ilə fərqləndiyindən ixrac potensialı yüksəlmiş, məhsul satışından ölkəmizə daxil olan milyonlarla vəsait kənd əhalisinin sosial rifahının və yaşayış şəraitinin daha da yaxşılaşmasına ciddi təsir etmişdir.

İkinci yerdə pomidordur. Pomidor Azərbaycandan Ukrayna bazarı üçün ən böyük ixrac imkanlarına malik (94 milyon dollar dəyərində) məhsul hesab edilir. Üçüncü yerdə xurma olmaqla onun satışından 2019-cu ildə 125,6 milyon dollar, 2020-ci ildə isə 91,6 milyon dollar vəsait daxil olmuşdur ki, bu da ümumi ixraca nisbətən 0,67 %, 2020-ci ilin qeyri-neft sektoru üzrə ixracına nisbətən 6,28% təşkil etmişdir.

[3] "Azərbaycanın kənd təsərrüfatı". Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: - 2020.- 653s., səh.108.

Növbəti şəkər ixracıdır ki, bu da 62 milyon dollar təşkil edir. Lakin nəzərə alınmalıdır ki, şəkərin istehsalı üçün xaricdən xammal gətirilib. Yalnız çuğundur istehsalına keçəndən sonra xammal idxalına pul ayrılmamaqla onun istehsalını iki dəfə artırmaq mümkün olacaqdır.

**Cədvəl 1. Potensial ixrac bazarları və əsas ixrac məhsulları**

| | **Ölkələr** | **Əsas prioritetlər** | **İkinci dərəcəli prioritetlər** |
|---|---|---|---|
| 1 | Rusiya | şokolad və emal edilmiş qəhvə, üzüm şərabından əldə olunan spirt, qabıqlı fındıq | şaftalı<br>gilas |
| 2 | Ukrayna, Rusiya | pomidor<br>qara çay | şokolad və emal edilmiş qəhvə, üzüm şərabından əldə olunan spirt |
| 3 | Mərkəzi və Orta Asiya, MDB ölkələri: Özbəkistan, Qazaxıstan, Türkmənistan | günəbaxan/saflor yağı, maye şəklində olmayan marqarin, şokolad və emal edilmiş qəhvə, gilas | Şaftalı, təzə meyvə, xurma qarağat |
| 4 | Orta Asiya,<br>Aİ: Avstriya, Polşa,Belçika, Danimarka,Yunanıstan, İtaliya, Niderland, İspaniya, Almaniya, Macarıstan, Portuqaliya, Fransa | qabıqlı fındıq, gilas, meyvə şirəsi, günəbaxan/saflor yağı, şokolad və emal edilmiş qəhvə, çəkər qamışı, rafinə olunmuş yağlar | təzə meyvə<br>xurma<br>qarğıdalı |
| 5 | Fars körfəzi ölkələri: Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Bəhreyn, Küveyt | şokolad və emal edilmiş qəhvə | günəbaxan toxumu/<br>saflor yağı |

*Müəllif tərəfindən tərtib edilmişdir[4].

Deməli, müasir dövrdə ölkəmizdə aqrar sahədə fəaliyyət göstərən ixrac yönümlü istehsal sahələrinin yuxarıda adlarını qeyd etdiyimiz ekoloji təmiz ərzaq məhsulları istehsalına üstünlük verməlari və həmin məhsullarla beynəlxalq bazarlara çıxmaları onların istehsal-satış fəaliyyətlərinin əhəmiyyətli dərəcədə genişləndirilməsinə gətirib çıxara bilər.

[4] Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" haqqında Fərmanı // Bakı: 6 dekabr 2016. -177s., səh.109.

Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalı üçün əlverişli təbii-iqlim şəraiti olsa da, müəssisələrin həmin məhsulların marketinqi üzrə kifayət qədər təcrübələrinin olmaması onların beynəlxalq bazarlara çıxışını əngəlləyən amilə çevirir. Buna baxmayaraq ixrac yönümlü istehsal sahələri marketinq konsepsiyalarını mənimsəməklə, marketinq metodlarından bacarıqla istifadə etməklə, daxili və beynəlxalq bazarlara çıxaraq istehsal-satış fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsi üçün əlverişli satış bazarlarına malik ola bilərlər. Lakin dəqiq hazırlanmış marketinq siyasəti və marketinq planı olmadan daxili və beynəlxalq bazarlarda məhsul satmaq demək olar ki, mümkün deyil. Bazar münasibətləri şəraitində kənd təsərrüfatı məhsullarının satışının optimal səviyyəsinin müəyyən olunmasında daxili və xarici bazarın müxtəlif növ mal qrupları üzrə ixracı təhlil edilməlidir. Bu zaman 2016-2019-cu il göstəricilərinə uyğun olaraq tərtib etdiyimiz cədvəl 2 əsasında təhlil aparmaq daha məqsədəuyğundur. 2018-ci ildə isə ölkəmizdən ən çox ixrac olunan kənd təsərrüfatı məhsulları təzə meyvə, tərəvəz və kartofdur.

**Cədvəl 2. Azərbaycan Respublikasında aqrar ixracın əsas məhsul növləri üzrə strukturu**

| Malların adı | 2016 | | 2018 | | 2019 | | 2019/ 2016 |
|---|---|---|---|---|---|---|---|
| | Miqdar, ton | Məbləği, min ABŞ dolları | Miqdarı, ton | Məbləği, min ABŞ dolları | Miqdarı, ton | Məbləği, min ABŞ dolları | % |
| Kartof, | 38 230 | 15789 | 66 563 | 29 628 | 61 785 | 26 852 | 70,1 |
| Təzə tərəvəz | 124511 | 113187 | 233332 | 202 812 | 221 195 | 214 130 | 89,2 |
| Təzə meyvə | 214 350 | 243435 | 319188 | 324 781 | 336 342 | 361 368 | 48,5 |
| Çay | 1 138 | 6 179 | 1 367 | 9 374 | 1 506 | 9510 | 53,9 |
| Buğda unu | 24 | 7 | 1 207 | 326 | 724 | 186 | 26,7dəfə |
| Bitki yağları | 10 254 | 10 711 | 10 842 | 9 354 | 8219 | 7399 | -30,1 |
| Marqarin, digər qida qarışıqları | 2 966 | 2 938 | 2769 | 2 820 | 3359 | 3607 | 22,8 |
| Meyvə və tərəvəz konservləri | 5 768 | 5 150 | 6 689 | 7 754 | 6928 | 9190 | 78,5 |
| Meyvə və tərəvəz şirələri | 6 121 | 6 265 | 7 487 | 9 673 | 9870 | 11184 | 78,5 |

*Müəllif tərəfindən tərtib edilmişdir[5].

[5] "Azərbaycanın xarici ticarəti" / Statistik məcmuə / Bakı, 2020., 220s. səh.82.

Təzə meyvə əsasən Rusiya Federasiyasına, Ukrayna, Qazaxstan, İtaliya, Almaniya, Gürcüstan, İran İslam Respublikası və Türkiyəyə, təzə tərəvəz Rusiya Federasiyası, Gürcüstan, Ukrayna, İraq, Bolqarıstan, Türkmənistan, Moldova Respublikası, Türkiyəyə və Moldova Respublikasına, kartof isə Rusiya Federasiyasına, Ukrayna, Qazaxıstan və Gürcüstana ixrac edilmişdir. 2016-cı illə müqayisədə 2019-cu ildə respuplikamızdan ixrac olunan kənd təsərrüfatı məhsullarının yüksək dərəcədə artması özünü göstərir. Müqayisə olunan dövr ərzində yalnz bitki yağlarının ixraçında 30,1% azalma baş vermişdir.

Respublikamızda Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracı da təhlil etmək vacib şərtdir (cədvəl 3). Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracın quruluşuna nəzər salsaq məlum olur ki, 2019-cu ildə ümumi ixracın tərkibində bitki mənşəli məhsullar 3,2% təşkil edir,o cümlədən tərəvəzlərin ixracı 1,3%, yeməli meyvələr və qoz-fındıq, sitrus bitkilərinin ixracı isə 1,9 % təşkil edr. Bu göstəricilər müvafiq olaraq 88,5%, 48,8%, 16% artmışdır.

**Cədvəl 3. Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracın quruluşu**

| Malların adı | 2016 | 2018 | 2019 | |
|---|---|---|---|---|
| | Məbləği, min ABŞ dolları | Məbləği, min ABŞ dolları | Məbləği, min ABŞ dolları | % |
| Diri heyvanlar və heyvan mənşəli məhsullar | 4 214,9 | 12 090,0 | 23 231,3 | 0,1 |
| Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün | 117 633,9 | 90 707,7 | 104 616,8 | 0,5 |
| Heyvan və ya bitki mənşəli piylər və yağlar | 17 113,8 | 16 861,9 | 18 451,0 | 0,1 |
| Bitki mənşəli məhsullar | 386 559,7 | 584 702,4 | 625 904,0 | 3,2 |
| Tərəvəzlər | 129 022,1 | 233 331,4 | 243 242,5 | 1,3 |
| Yeməli meyvələr və qoz -fındıq, sitrus bitkiləri | 243 755,4 | 325 524,9 | 362 573,3 | 1,9 |
| Dənli bitkilər | 2 618,7 | 7 802,7 | 3 038,1 | 0,02 |

Mənbə: Azərbaycanın xarici ticarəti" / Statistik məcmuə / Bakı, 2020., 220s. səh.58,59[6].

[6] "Azərbaycanın xarici ticarəti" / Statistik məcmuə / Bakı, 2020., 220s. səh.58,59.

Respublika üzrə 2019-cu ildə meyvə-tərəvəz ixracına nəzər salmaq önəmlidir (dioqram 2). Dioqramın təhlilindən məlum olur ki, 2019-cu ildə meyvə-tərəvəz ixraçı 605,8 mln. ABŞ dolları təşkil etmişdir. Ondan, pomidor ixracı 174,6 min ton olmaqla 189,3mln.ABŞ dolları, xurma ixracı 146,1min ton olmaqla 104,7 mln. ABŞ dolları, meşə fındığının ixracı azlıq təşkil etsə də 125,6 mln. ABŞ dolları məbləğində olmaqla ümumu ixraca nisbətən 0, 64% təşkil etmişdir.

**Azərbaycan Respublikası üzrə 2019-cu ildə meyvə-tərəvəz ixraçı**




Dioqram 2. *Müəllif tərəfindən tərtib edilmişdir[7].

Dissertasiya işində ixrac yönümlü istehsal sahələrinin bazara çıxışını sürətləndirmək məqsədilə ixrac olunan kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırma mexanizminin təkmilləşdirilməsi, ixrac mallarının daşınması və logistik infrastrukturun formalaşdırılması məsələləri, ixrac olunan kənd təsərrüfatı məhsullarının markalanma və qablaşdırılması prosesinin təkmilləşdirilməsi və dövlətin kənd təsərrüfatı məhsulları və ərzağın idxal-ixracı üzrə iqtisadi tənzimləmə siyasətinin təkmilləşdirilməsi istiqamətləri də hərtərəfli təhlil edilmişdir. İxracın genişləndirilməsi, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı ölkə Prezidenti tərəfindən imzalanmış sənədlərə uyğun olaraq, “İxrac təşviqinin ödənilməsi qaydası”, “İxrac təşviqi şamil olunacaq məhsulların siyahısı” və “İxrac təşviqi üzrə tətbiq olunacaq əmsallar” təsdiq olunaraq Azərbaycanın həm iqtisadi inkişafında, həm də xarici iqtisadi əlaqələrinin genişləndirilməsində yeni mərhələnin başlanğıcını qoymuşdur.

[7] “Azərbaycanın xarici ticarəti” / Statistik məcmuə / Bakı, 2020., 220s. səh.82.

“İxrac təşviqi şamil olunacaq məhsulların siyahısı”na aşağıdakı məhsullar daxil edilmişdir: bal, xurma, nar, qovurulmuş fındıq kimi kənd təsərrüfatı məhsulları; qurudulmuş meyvələr; konservləşdirilmiş meyvə-tərəvəz; mürəbbə və cemlər; turşular; spirtli içkilər və şərab, mineral sular və şirələr; unlu qənnadı məmulatları. Azərbaycanda istehsal edilən tütün, alma, qoz-fındıq, subtropik meyvələr, digər meyvə və giləmeyvələr, yaşıl çay, tərəvəzlər, təbii bal, dərman bitkiləri, yağlı toxumlar, pambıq və digər kənd təsərrüfatı məhsulları beynəlxalq rəqabətqabiliyyətliliyə malikdirlər.

Yekun olaraq kənd təsərrüfatı məhsulları bazarının infrastrukturunun inkişafına təsir göstərən makroiqtisadi amilləri iqtisadi sahələr üzrə əsas fondların vəziyyəti, bazar infrastrukturunun əsas tərkib elementlərinin funksional vəziyyəti, bazar münasibətlərinin inkişaf meyllərinin müəyyənləşdirilməsi, məhsul irəliləyişi sxeminin formalaşdırılması, öyrənilməsi və mövcud problemlərin aşkar edilməsi istiqamətində qiymətləndirmək mümkündür. Eyni zamanda, yeni iqtisadi modelə keçməklə iqtisadiyyatımızı ancaq islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına inkişaf etdirmək, ixracyönümlü məhsulların istehsalını artırmaq, ixracın şaxələndirilməsinə nail olmaq və xarici bazarlarda mövqelərimizi daha da möhkəmləndirməliyik.

Üçüncü fəsil **“Müasir şəraitdə ixrac yönümlü istehsal sahələrinin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi” adlanır.** Bu fəsildə “İxrac yönümlü istehsal sahələrinin modernləşdirilməsi və innovativ inkişaf istiqamətləri”, “Aqrar sahədə ixrac yönümlü məhsul istehsalının formalaşdırılması və rəqabətqabiliyyətliyinin yüksəldilməsi istiqamətləri”, “İxrac yönümlü istehsal sahələrinin bazar infrastrukturunun formalaşdırılması və marketinq sisteminin təkmilləşdirilməsi istiqamətləri” araşdırılmışdır.

Modernləşmə ixrac yönümlü istehsal sahələrinin müasir idarəetmə sisteminin formalaşdırılmasına təkan verməklə bərabər, eyni zamanda kənd təsərrüfatına xidmət edən iqtisadi sahələrin inkişaf etməsinə şərait yaradaraq bu sahə üzrə daha önəmli ixtisasa malik peşəkar mütəxəssislərin hazırlanmasına xidmət edir. Kənd təsərrüfatında modernizasiyanın sürətini müəyyənləşdirən əsas amilləri aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür (sxem 2).

Kənd təsərrüfatında müasirləşməni intensivləşdirmək məqsədilə kənar investisiyaların təşviqinə dair dövlət proqramının qəbulu həyata keçirilməli, özəl kapitalın cəlb olunması məqsədilə risklər qiymətləndirilməli, kapitallaşma müddətində məhdudluq, eləcə də rentabellik səviyyəsi müəyyənləşdirilməli, xarici kapitalın regional, sahələr üzrə, texnoloji baxımdan, həmçinin ixrac xüsusiyyətlərinə istinad edən həvəsləndirmə fəaliyyətləri müəyyənləşdirilərək gerçəkləşdirilməlidir.




Sxem 2. Aqrar sektorda müasirləşmənin sürətini müəyyən edən əsas amillər. *Müəllif tərəfindən tərtib edilmişdir[8].

Aqrar sahədə modernləşdirməni sürətləndirmək üçün xarici investisiyaların təşviqi üzrə dövlət proqramı qəbul edilməli, özəl investisiyaların cəlb edilməsi üçün risklər qiymətləndirilməli, investisiya dövründə məhdudlaşma və gəlirlilik səviyyəsi müəyyənləşdirilməli, xarici investisiyaların regional, sektorial, texnoloji və ixrac amillərinə söykənən təşviq tədbirləri müəyyənləşdirilərək gerçəkləşdirilməlidir.

Bu baxımdan aqrar sahədə modernizasiya siyasətinin əsas məqsədi, kənd təsərrüfatı istehsalında müasirləşməni müəyyənləşdirən əsas amillər və ona təsir göstərən neqativ və pozitiv amillər, bu istiqamətdə dövlətin innovativ fəaliyyəti və tənzimləmə istiqamətləri qruplaşdırılaraq tədqiqat işində öz əksini tapmışdır.

[8]Qasımlı V. Ə. İqtisadi modernizasiya. Monoqrafiya. Bakı: - 2014. - 312 s., səh.102.

Aparılan tədqiqatların nəticəsi olaraq müəyyən edilmişdir ki, bölgələrdə məhsulların rəqabətqabiliyyətliyinin artırılması məqsədilə istehsal imkanlarından effektiv istifadənin müasir mexanizmləri aktuallıq təşkil edərək müvafiq sferada yeni elmi və texniki nailiyyətlərin, eləcə də müasir texnologiyaların istehsala tətbiq olunması genişləndirilməli, məhsulların keyfiyyətinin yüksəldilməsi üçün isə seleksiya işləri yenidən qurulmalı, yeni toxum növlərinin, həmçinin cins heyvanların yetişdirilməsi işləri daha səmərəli təşkil olunmalı, elmi-tədqiqat subyektlərinin maddi-texniki bazaları möhkəmləndirilməlidir.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatında istehsal sahələrinin iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün bu sahələrin davamlı innovativ inkişaf modelinə keçmək zərurəti yaranmışdır. Bu baxımdan modernizasiya istiqamətində sərmayə yatırılan istehsal sahələrinin kompleks şəkildə stimullaşdırılması, investisiyaların iqtisadi effektivliyinin yüksəldilməsi, istehsal sahələri üçün modern texniki imkanların yaradılması və innovativ texnologiyaların geniş miqyasda tətbiqi, istehsal sahələri ilə emal sənayesi arasında sağlam və fasiləsiz əlaqələrin qurulması və təkmilləşdirilməsi və digər tədbirlərin görülməsi vacib şərtdir.

Dissertasiya işində qarşıya qoyulan məqsədlərdən biri də ixrac yönümlü məhsul istehsalının formalaşdırılması və həmin məhsulların rəqabətqabiliyyətliyinin yüksəldilməsi mexanizmlərini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədlə bazar münasibətləri şəraitində ixrac yönümlü məhsul istehsalının səmərəlilik göstəriciləri qiymətləndirilərək onların stimullaşdırılması istiqamətləri verilmişdir.

Tədqiqatlar göstərir ki, əlaqəli iqtisadi fəaliyyətlərin coğrafi yaxınlığı məhsuldarlığın artırılması və innovativ inkişafı təmin edir. Klasterlər – son istehsalçılar, təchizatçılar, xidmət provayderləri, tədqiqat laboratoriyaları, tədris müəssisələri və iqtisadiyyatın müəyyən sahəsi üzrə digər təsisatlar regional iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsidir. Təbii ki, Azərbaycanda hər bir regionda istehsalı nəzərə alaraq kənd təsərrüfatı üzrə müvafiq ixrac klasterlərini yerləşdirmək olar: Lənkəranda – subtropik bitkilər klasteri, Qubada – alma klasteri, Xaçmazda – tərəvəz klasteri, Göyçayda – nar klasteri, Zaqatalada – fındıq klasteri, Gəncəbasarda – xurma klasteri,

Cəlilabadda – üzüm klasteri, İmişlidə - şəkər klasteri və s. Artıq dünyanın inkişaf etmiş ölkələri ilə yanaşı MDB məkanında Rusiya və Qazaxıstanda da  klasterial inkişaf üzrə real addımlar atılmışdır. Sahibkarlığın İnkişaf Fondunun dəstəyi ilə tikilib istifadəyə verilmiş iritutumlu anbarlar, logistika şirkətləri, Logistika Mərkəzlərinin mərkəzdə və regionlarda fəaliyyəti daim inkişaf edir. Ölkəmizdə 2013-cü ildən etibarən ümumi sahəsi 12 min 800 kvadrat metr, ümumi yük dövriyyəsi gündəlik 1200 ton olan Beynəlxalq Logistik Mərkəz fəaliyyət göstərir. Cənubi Qafqazda yalnız Azərbaycanda olan bu Beynəlxalq Logistik Mərkəzində mənfi 18 dərəcədən müsbət 20 dərəcəyədək bütün növ xüsusi temperatur rejimi tələb edən tez xarab olan yüklər saxlanıla və emal edilə bilər. Təbii ki, bu və respublikamızın Qazaxstanda yaratdığı Logistika Mərkəzi əsasən beynəlxalq bazarlara çıxışın asanlaşdırılmasına xidmət göstərir.

İxracın təşviqi tədbirləri çərçivəsində AZPROMO tərəfindən 2017-ci ilin ilk rübündə 50-dən çox tədbir keçirilərək 30-dan çox şirkətə ixrac üzrə fərdi xidmət göstərilmiş, ixrac portalları istifadəyə verilmiş, "GO EXPORT" layihəsi üzrə 5 proqram təşkil edilərək regionlarda təlimlər keçirilmişdir. Həmçinin, İqtisadiyyat Nazirliyinin dəstəyi ilə "İxracatçılar Klubu", habelə Arıçılar, Şərab, Nar, Fındıq, Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyaları yaradılmışdır. Qeyd edilənlərlə yanaşı aqrar sektorun intensiv və səmərəli inkişafının stimullaşdırılması üçün dövlət dəstəyi tədbirləri beynəlxalq təcrübəyə uyğun olaraq davam etdirilməlidir. İnnovasiya fəallığının yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması, innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri mexanizmlərin qurulması, innovasiya potensialının səmərəli istifadəsi və inkişafının təmin edilməsi məqsədi ilə dövlət dəstəyi tədbirləri reallaşdırılmalı, özəl bankların və kredit təşkilatlarının bu sektora vəsait (kredit) ayırması daha da genişləndirilməli, kənd təsərrüfatının sığortalanması mexanizmi təkmilləşdirilməlidir.

Yuxarıda vurğuladığımız tədbirlərin reallaşdırılması əlavə ixrac bazarlarına daxil olmaq imkanlarının yaradılmasında, aqrar sahə məhsullarına aid bazar infrastrukturunun inkişafı, kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi sisteminin təkmilləşdirilməsində, eləcə də aqrar sektor və emal sənayesi malları üzrə ixracın təşviq

etdirilməsi və dəstəklənməsində əsas fəaliyyət istiqamətləri kimi qəbul etmək olar.

## NƏTİCƏLƏR

Beləliklə, iqtisadiyyatın qloballaşdığı müasir şəraitdə tədqiqat işinin məqsədi müəyyənləşdirilmiş və bu məqsədə nail olmaq üçün həlli tələb olunan məsələlər iqtisadi və müqayisəli şəkildə təhlil edilərək aşağıdakı formada ümumiləşdirilmişdir:

* Tədqiqat obyekti olan ixrac yönümlü istehsal sahələrinin inkişaf istiqamətlərinin fəaliyyət proqramını tərtib etmək məqsədəuyğun hesab edilərək ixrac yönümlü məhsul istehsalı sistemi, ixrac yönümlü istehsal sahələrinin inkişaf sistemi və məhsul satışının reallaşdırılması sistemi kompleks şəkildə təhlil edilərək respublikamızın iqlim xəritəsinin zonalarına uyğun əkin sahələrinin məhsuldarlığı, əkinçilik sisteminin formalaşması, xarici və qabaqcıl texnologiyaların istehsala tətbiqi, xarici şirkət və kompaniyaların ölkəyə gəlməsinin stimullaşdırılması və digər amillərin nəzərə alınması təklif edilmişdir.

* Kənd təsərrüfatında istehsalın iqtisadi səmərəliliyini əks etdirən mühüm göstəricilərin qiymətləndirilməsi, əməyin və istehsalın stimullaşdırılması, təsərrüfatçılıqda idarəetmənin təkmilləşdirilməsi, informasiya texnologiyalarının yeni vasitələrinin tətbiqi ilə təmin olunması əsaslandırılmışdır.

* Müasir şəraitdə kənd təsərrüfatının maliyyə təminatı, mövsümi qiymətlərin nizamlanması, istehsalda israfın minimuma endirilməsi, eləcə də ixrac qabiliyyətinin yüksəldilməsi aspektindən regionlarda yeni texnologiyalara əsaslanaraq iri saxlanc komplekslərinin yaradılması, innovativ sahibkarlığın inkişaf etdirilməsi, innovativ texnoparkların yaradılması və s. ixrac yönümlü istehsal sahələrinin modernləşdirilməsi və önəmli innovativ inkişaf istiqamətləri təklif edilmişdir.

* Müvafiq dövr ərzində istehsal müəssisələrinin fəaliyyətindən əldə edilən mənfəətin dinamikası, ümumi və xalis gəlir, rentabelliyin səviyyəsi və digər iqtisadi amillərin təhlili aparılaraq əsas fondları, cari istehsal məsrəflərini, amortizasiya ayırmalarını nəzərə almaqla

aqrar istehsalın intensivlik səviyyəsinin hesablanması əsas şərt kimi qarşıya qoyulmuşdur.

* Aqrar müəssisələrdə istehsalın səmərəlilik modeli əsasında səmərəliliyə təsir edən amillərin; istehsal-texnoloji, istehsal-iqtisadi və sosial sahələrin qarşılıqlı əlaqəsi təklif edilmişdir.

* Beynəlxalq bazarın və marketinq kompleksinin araşdırılması nəticəsində dəqiq marketinq siyasəti və marketinq planının hazırlanması tələbləri, informasiya-marketinq sisteminin formalaşdırılması konsepsiyasının reallaşdırılmasında inkişaf etmiş ölkələrin təcrübəsindən geniş istifadə əsaslandırılmışdır.

* İxrac yönümlü istehsal sahələrinin bazara çıxışını genişləndirmək məqsədi ilə ixrac olunan kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırma mexanizminin təkmilləşdirilməsi, ixrac mallarının daşınması və logistik infrastrukturun formalaşdırılması məsələləri, ixrac olunan kənd təsərrüfatı məhsullarının markalanma və qablaşdırılması prosesinin təkmilləşdirilməsi və dövlətin kənd təsərrüfatı məhsulları və ərzağın idxal-ixracı üzrə iqtisadi tənzimləmə siyasətinin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

* Aqrar sahədə modernizasiyanın sürətini müəyyənləşdirən əsas amillər qruplaşdırılmış, təklif edilmişdir ki, xarici investisiyaların təşviqi üzrə dövlət proqramı qəbul edilməli, qeyri-dövlət kapitalın cəlb olunması məqsədilə risklər qiymətləndirilməli, kapital qoyuluşu dövründə məhdudlaşma, eləcə də rentabellik səviyyəsi müəyyənləşdirilməli, kənar investisiyaların bölgə, sektorial, innovasiya və ixrac elementlərinə istinad edən stimullaşdırma tədbirləri müəyyənləşdirilərək gerçəkləşdirilməli, iqtisadi fəaliyyətin desentralizasiyası məqsədilə iqtisadi regionların investisiya aktivliyi artırılmalı, elm və təhsilin vahid platformada prosesə qoşulması təmin edilməlidir.

* Bazar münasibətləri şəraitində xarici ticarət şərti, real mübadilə məzənnəsi, xarici ticarətin optimal coğrafi və valyuta strukturu nəzərə alınmaqla ölkələr arasında iqtisadi inteqrasiyanı gücləndirərək xarici iqtisadi əlaqələrin səmərəli inkişaf etdirilməsi və kənd təsərrüfatı məhsulları ixracının stimullaşdırılması sahəsində ixrac potensiallarının formalaşdırılmasına təsir edən amillərin sistemləşdirilməsi, kənd təsərrüfatında xarici ticarət əlaqələrini şərtləndirən amil-

lərin və onların prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, rəqabətli məhsul istehsalı həcminin yüksəldilməsi istiqamətləri üzrə elmi baxımdan əsaslandırılan təkliflərin hazırlanması, marketinq sisteminin təkmiləşdirilməsi və əlverişli xarici ticarət rejiminin formalaşdırılmasına nail olmaq əsaslandırılmışdır.

* Daxili və dünya bazarına ərzaq məhsulları ixracının həcminin artırılması və strukturunun təkmilləşdirilməsi istiqamətləri, o cümlədən, ixrac olunan kənd təsərrüfatı məhsullarının rəqabətqabiliyyətliliyi, onların sertifikatlaşdırma mexanizminin, markalanma və qablaşdırılması prosesinin beynəlxalq normalara uyğunlaşdırıması, daxili və dünya bazarlarında rəqabətin artması istiqamətləri qiymətləndirilmişdir.

* İşğaldan azad olunan ərazilərin inkişaf etdirilməsi üçün respublikamızın iqlim xəritəsinin zonalarına uyğun relyef və geofiziki məlumatlar nəzərə alınaraq əkinçilik sisteminin formalaşması, kənd təsərrüfatında mülkiyyət üzərində yeni təsərrüfatçılıq formalarının yaradılması, məhsuldarlığın artırılması məqsədilə uzun illər istifadəsiz qalan torpaq sahələrinin yararlı hala gətirilməsi, sonrakı mərhələdə isə torpaqların kateqoriyaları hazırlanmaqla uçotunun aparılması əsaslandırılmışdır.

Bütün bu tədbirlər ixrac yönümlü istehsalın təşkilində səmərəliliyi artırmaqla iqtisadiyyatımızın ən önəmli sahəsi olan aqrar sektorun inkişafına və respublika əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə təkan verə bilər.

**Təqiqat işinin əsas məzmunu aşağıda çap olunmuş tezis və elmi məqalələrdə öz əksini tapmışdır:**

1. Azərbaycanda iqtisadi fəaliyyətinin stimullaşdırılması siyasətinin ixraca təsiri // - Bakı: Kənd təsərüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstutunun elmi əsərləri, -2017. №4, – s.54-59.
2. Aqrar sənaye müəssisələrinin ixrac potensialını formalaşdıran amillər // - Bakı: Kənd təsərüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstutunun elmi əsərləri, - 2018. № 2, - s. 88-93.

3. Azərbaycan ixracyönümlü iqtisadi fəaliyyətin əsas xüsusiyyətləri // - Baki: Odlar Yurdu Universitetinin Elmi və pedaqoji xəbərləri, - 2018. № 49, - s. 69-76.

4. İxrac yönümlü istehsal sahələrinin modernləşdirilməsi // - Bakı: Azərbaycan Aqrar elmi nəzəri jurnal, - 2018. № 3, - s.151-154.

5. İxrac potensialının iqtisadi inkişafa təsirinin nəzəri və metodoloji aspektləri // Bakı: - Azərbaycan Memarlıq və İnşaat Universiteti, Tikintinin iqtisadiyyatı və menecment. Elmi-praktiki jurnal, - 2018. №5, - s. 20-28.

6. Оценка факторов экспортного потенциала в Азербайджанской Республике // Москва: - Экономика и предпринимательство, -2018. №4, - с. 1278-1281.

7. Aqrar ixrac potensialının formalaşması məsələləri // "Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: Təhlil və nəticələr. Milli İnkişaf modelinin formalaşması problemləri" mövzusunda Respublika elmi-praktiki konfrans, - Bakı: -2010, - s. 585-587.

8.İxracyönümlü istehsalın formalaşdırılması və rəqabətqabiliyyətliyinin yüksəldilməsi // Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanın Milli İqtisadi İnkişaf Modeli" mövzusunda Respublika Elmi Konfransının materialları, Azərbaycan Memarlıq və İnşaat Universiteti. Tikintinin iqtisadiyyatı və menecment elmi-praktiki jurnal № 2 (11), - Bakı: – 2020, - s. 360-364.

9. Модернизация экспортоориентированных произодств и направления их инновационного развития // Современная экономика: Актуальные вопросы, достижения и инновации. Сборник статей XXXIV международной научно-практической конференции, Международный центр научного сотрудничества «Наука и просвещение», - Пенза: -5 февраля, - 2020, - с.139-143.

Dissertasiyanın müdafiəsi “20” oktyabr 2021-ci il tarixində saat 16:00-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 20 sentyabr 2021-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.09.2021
Kağızın formatı: (210x297) ¼
Həcm: 43627 işarə
Tiraj: 100